**Jalə MƏHƏRRƏMOVA**
AMK-nın “Humanitar fənlər” kafedrasının baş müəllimi
Ünvan: Yasamal r. Ə.Ələkbərov küç. 7
E-mail: meherremova.jale@inbox.ru

DOI: 10.62440/AMK2024-4.s.94-104

# YARADICILIĞIN SOSİAL-FƏLSƏFİ TƏHLİLİ

***Xülasə:*** *Məqalədə ədəbiyyat, fəlsəfə, psixologiya və digər elmlərin ən vacib mövzularından biri, insanın mənəvi fəaliyyətinin ən yüksək forması olan yaradıcılıq anlayışının sosial-fəlsəfi izahı verilir. Obyektiv gerçəkliyi, insan duyğularını, fikirlərini, özündə əks etdirən produktiv və reproduktiv musiqi fəaliyyəti, onun obyektiv və subyektiv tərəfləri təhlil edilir. Fərdin yaradıcı təbiətinin inkişafının göstəricisi, yaradıcılıq prosesinin əsas mənbəyi rolunu oynayan “yaradıcılıq potensialı”nın mahiyyətiylə bağlı fəlsəfi konsepsiyalar haqqında məlumat verilir. Məqalədə P.K.Engelmeyerin yaratdığı yeni “evrologiya” elminin əsaslarının təhlili verilmişdir.*
***Açar sözlər****: reproduktiv fəaliyyət, qeyri-reproduktiv fəaliyyət, yaradıcılıq, musiqi yaradıcılığı, yaradıcı təxəyyül, “Transsendental” təxəyyül, intellektual təfəkkür, evrologiya*

İnsan dünyanı dərk etdiyi andan başlayaraq həm obyektiv reallığın beynində inikasına, həm öz xəyal dünyasının məhsulu olan yaratdıqlarına yaradıcılıq mövqeyindən yanaşır. Duyma, qavrama, anlama kimi idraki proseslər, həqiqət axtarışı bizi davamlı yaradıcılıq prosesinin fəal iştirakçılarına çevirmiş olur. Başqa sözlə desək, ətraf aləmin hadisələri, predmetləri fikri inikası zamanı onların psixikamızda əksi bizi şair, rəssam, ya da musiqiçi kimi formalaşdıra bilər. Peşəsindən, tutduğu mövqeyindən asılı olmayaraq həyata yaradıcı insan, sənətkar kimi yanaşmaq dünyada mövcud olmağın, özünü başqalarına ifadə etməyin bir yoludur.

Yaradıcı fəaliyyət yalnız incəsənətlə məşğul olan insanlara xas xüsusi qabiliyyət, istedad deyil, o insan varlığının sübutudur. İnsanın obyektiv yaxud subyektiv fəaliyyəti, gündəlik həyatda etdiyimiz bütün hərəkətlərin, proseslərin təməlində yaradıcı mövqe dayanır, məhz bunun nəticəsində eyni peşə fəaliyyətiylə məşğul olan adamları bir-birindən fərqləndirib daha yaxşı hesab etdiyimizi ustad adlandırırıq. Görəcəyi eyni işə hər dəfə fərdiyyətçilik mövqeyindən fərqli yanaşan, meydana çıxan gündəlik problemlərin unikal həlli yolunu tapa bilən, kreativ ideyalara malik olan insan əməyinin məhsulu bir sənət əsəri qədər dəyərlidir desək yanılmarıq. Hər bir şəxs seçimləriylə, fəaliyyət proqramı, metoduyla, onun üçün

müqəddəs olan mənəvi dəyərlərə əsaslanıb, prinsiplərini formalaşdırıb öz həyat yolunu müəyyənləşdirir. Bununla da yaşadığı həyatın, öz reallığının yaradıcısı statusunu almış olur. Lakin qeyd etməliyik ki, hər yaradıcı fəaliyyət, hadisələrə sənətkar baxışı insanı sənətkar, onun fəaliyyətinin nəticəsini yaradıcılıq məhsulu etmir. Çünki yaradıcılıq insana xas keyfiyyətcə yeni, fərqli bir şeyin yaradılması olub, proses kimi özünəməxsusluğu, orijinallığı və sosial-tarixi unikallığı ilə seçilən bir fəaliyyətdir. Yaradıcılığın əsasında düşüncə azadlığı və insanın mənəvi fəaliyyəti, daxili aləmində, təhtəlşüurun dərinliklərində axtarış, öz hiss və emosiyalarının təsiriylə enerji partlayışı, öz daxili "mən"inin köməyilə digər insanlara təsir etmə qabiliyyəti dayanır.

Yaradıcılıq şüuraltı enerjinin məcmusu, insan təxəyyülünün ovsunlayıcı, mistik qüvvəsi olub reallığı fəth edərək, yeninin doğuşunu hazırlayır. Buna görə də yaradıcı insanın əsas keyfiyyətlərinə öz qabiliyyətlərinə inam, risk, fərqli, qəribə görünmək qorxusundan uzaq olma, dərin bir yumor hissi, zəngin təxəyyül, xəyal qurma sevgisi, çılğın, saf uşaq qalmaq kimi xüsusiyyətlər daxildir. Belə insanlar, problemi həll etməyə, "başa düşməyə" yönəlmiş yüksək intellekt əmsalına malik olsalar da, yaradıcılıq mexanizminin işləməsinə intuisiya, spontanlıq ən vacib xüsusiyyət kimi ön planda olur. Çox vaxt prosesin gedişi zamanı sənətkar nəticəni əldə edəcəyi yollardan xəbərsiz olur, prosesin gedişində öz metodunu, tərzini tapır, bəzən üsulları, priyomları yeniləyir yaxud dəyişmiş olur, bəzi hallarda isə nəticə onun özü üçün belə sürpriz olur.

Yaradıcılıq fenomeninin öyrənilməsinin aktuallığı təkcə onun nəzəri fəlsəfi əsaslarının dərk edilməsinin zəruriliyindən, musiqi ixtisaslarında təhsil alan tələbələrin yaradıcı potensialının üzə çıxarılmasında meydana çıxan problemləri aradan qaldırmaq üçün metodoloji dəstəkdən ibarət deyil. Bu gün yetişməkdə olan gənc musiqiçi nəslinin təkcə ifaçı deyil, eyni zamanda dinləyiciyə təsir etməyi bacaran bir psixoloq, gələcəkdə biliklərini özündən sonra gələn nəslə ötürməli olan bir pedaqoq kimi bacarıqlarını, kompetensiyalarını artırması üçün vacibdir. Ən yüksək ixtisaslı müasir musiqiçi təkcə geniş dünyagörüşünə sahib olan bir ifaçı, nəzəri və metodoloji biliklərə, praktik iş təcrübəsinə sahib bir müəllim deyil, həm də dinləyici auditoriyasının dəyişkən əhvalının hər anını müəyyənləşdirərək yaradıcılıq prosesini proqnozlaşdırmaq və optimallaşdırmaq iqtidarında olan bir mütəxəssis olmalıdır. Yaradıcılıq fenomeninin fəlsəfi, psixoloji əsaslarını – yaradıcı düşüncənin, ilahi vəhyi öyrənərək öz istedadının, qabiliyyətinin hüdudlarını müəyyən edən ifaçı "özü-özünü" dərk edərək, peşəkar kimi püxtələşərək bütövlükdə bir musiqiçi nəslinin mənəvi inkişafına şərait yaratmış olur.

Yaradıcılıq incəsənət, ədəbiyyat, fəlsəfə, psixologiya və digər elmlərin obyekti olub, ən çox müzakirəyə səbəb olan anlayışlardan biridir. İnsanın yaradıcı fəaliyyətinin əsasları, yaradıcılığın müxtəlif aspektlərinin tədqiqi klassik fəlsəfi, sosioloji, kulturoloji və psixoloji ədəbiyyatda bütün dövrlərdə aktual məsələlərdən biri kimi mühüm yer tutur. Yaradıcılıq fenomeninin öyrənilməsi xüsusən psixo-

logiyanın ən populyar mövzulardan biri olmuşdur. Burada əsas diqqət düşüncə (təfəkkür) və yaradıcılıq (fəaliyyət) arasındakı əlaqəyə fərdin qabiliyyətinin öyrənilməsinə yönəlir. L. Vıqotski, S. Rubinşteyn, B.Bibler, D. Uznadze kimi bir sıra psixoloqlar şüuraltı və yaradıcılıq arasındakı əlaqəni, yaradıcılıq qabiliyyətlərinin formalaşması imkanlarını tədqiq edərək öz konsepsiyalarını yaratmışdılar. Yaradıcılığın mürəkkəb, daxili ziddiyyətli bir fenomen olaraq fəaliyyət mexanizminin öyrənilməsi, struktur təhlili cəhdləri, yaradıcı fəaliyyətin tam proses kimi müxtəlif mərhələlərinin ayrılması ilə sosial psixologiyanın xüsusi bir sahəsi – evrologiya məşğul olur. Təəssüflər olsun ki, azərbaycandilli elmi ədəbiyyatda bu sahəylə bağlı araşdırma, tədqiqat işləri azdır, demək olar ki yoxdur. Evrologiya XX əsrin əvvələrində meydana çıxmış bir cərəyandır. Banisi P. K. Engelmeyerə görə yaradıcılıq yoxdan nəsə yaratmaqdır. O, inanırdı ki, Avropa mədəniyyətinin həqiqət, yaxşılıq və gözəllik haqqında ənənəvi təlimləri ilə yanaşı, faydalılıq haqqında yeni bir doktrina – texnizm inkişaf etdirmək lazımdır.

O yazırdı: “Təyin olunmuş məqsədə çatmağı asanlaşdıran hər şey faydalıdır (hədəfin özündən asılı olmayaraq). Əks təqdirdə, işimizin məhsuldarlığını artıran hər şeyi faydalı olanlara aid edirik. Ancaq bu, bir peşə və bir sənət olaraq texnologiyanın funksiyası və əsas məqsədidir.” [6, s.30]. Filosof yaradıcılıq prosesində əsas yeri üç mərhələdən ibarət olan “üç akt nəzəriyyəsinə” verir: istək, bilik və bacarıq. Ona görə 1-ci mərhələdə gələcək yaradılışın ideyası yaranır, 2-ci mərhələdə bir layihə tərtib edilir və nəzəriyyənin sübutu həyata keçirilir, 3-cü mərhələdə bir sənət əsəri öz maddi təcəssümünü alır, texniki layihə konstruktiv şəkildə həyata keçirir və nəzəriyyə reallıda öz dəqiq ifadəsini tapır və sonda təqdim olunur. O öz kitabında çox rəngli kubların mozaikası ilə bir nümunə verir. İki nəfər eyni rəngli kublar dəstindən fərqli rəsmlər yaradır. Maddə və enerji xərcləri eynidir, lakin bu şəkillər iki fəaliyyətin nəticəsidir. Burada ortaya çıxan ilk sual budur: bu insan əsərlərinin əhəmiyyəti nədir? Biz əsəri müxtəlif nöqteyi-nəzərdən qiymətləndirirək, nəticədə onun hansısa bir dəyərə sahib olduğu fikrinə gəlirik, həyatımız üçün əhəmiyyətini müəyyənləşdiririk. Bu həm bədii əsər, həm də texniki ixtira üçün oxşar haldır. Beləliklə, hər hansı bir sağlam fəaliyyətin nəticəsi olaraq bu və ya digər halda nə vaxtsa tətbiq etmək imkanımız olan gözəl, faydalı olanın həyatımıza daxil olmasıyla yeni bir dəyərin ortaya çıxdığını görürük. Bu da insan yaradıcılığının nümunəsidir. İnsan heç nədən dəyərlər yarada bilir. Akseoloji baxımından insan sözün tam mənasında yaradıcıdır [6, s.35].

Fəlsəfi baxımdan evrologiya - yaradıcılıq doktrinası kimi qəbul edilir. O, yaradıcı fəaliyyət zamanı meydana çıxan problemlərin həllini sürətləndirən metodologiya kimi çıxış edə bilər. Empirik və nəzəri bilik səviyyələrinin evristik xüsusiyyətlərinə aşağıdakılar daxildir: düşüncə qabiliyyətinin azalması ilə evristik seçim etmək bacarığı, evristik qaydalar vasitəsilə problemlərin ümumi həllərinin induksiyası yolu ilə üzə çıxarılması; intuitiv olaraq yeni nəticələr əldə etmək və yeni fikirlər yaratmaq.

P.K.Engelmeyer və onun evrologiya nəzəriyyəsi ayrı geniş bir tədqiqat mövzusu olduğu üçün üzərində çox dayanmayıb fəlsəfə tarixində yaradıcılıq fenomeninin müxtəlif dövrlərdə fərqli filosoflar tərəfindən izahına diqqət yetirək.

Qədim şərq və Antik dövrün filosoflarından başlayaraq müasir dövrün bir çox mütəfəkkirləri yaradıcılıq prosesinin mahiyyətini, mənbəyini müəyyənləşdirməyə, bu prosesin tərkib hissəsi kimi qəbul edilən ilham anlayışının əsas xüsusiyyətlərini aydınlaşdırmağa çalışıblar. Diqqət çəkən məqamlardan biri odur ki, yaradıcılıq fenomenini tədqiq edən araşdırmaçılar bu problem ilə bağlı maraqlı məqalələr və kitablar yazsalar da, özləri yeni, mənəvi dəyəri olan, estetik zövqü oxşayan heç nə yaratmırlar. Elmdə və ya sənətdə tamamilə yeni dəyərlər yaradan insanlar isə çox vaxt bunu necə etdiklərini izah edə bilmir, yaxud yaratdıqlarının fərqinə belə varmırlar.

Fəlsəfi baxımdan yaradıcılıq sosial tərəqqi, insan azadlığının artması, şəxsiyyətin sosial inkişafını təmin edən ictimai münasibətlərin humanistləşdirilməsi, maraqları naminə yeni bir şeyin yaradılmasıdır. Yaradıcılığın fəlsəfi nəzərdən keçirilməsi, mahiyyətini izah etməyə çalışan müxtəlif fəlsəfi anlayışlar var. Bəziləri onu insanın sərbəst, şərtsiz, könüllü fəaliyyəti kimi qəbul edir, bəziləri isə təbiətin, dünyanın və insanın özünü yaradan Tanrının fəaliyyəti ilə əlaqələndirirlər. Qədim dövr fəlsəfəsində yaradıcılıq iki formada izah edilir: ilahi olaraq – kosmosun doğulması (yaradılması) aktı və insan kimi – sənət, sənətkarlığın meydana çıxması kimi. Buna misal olaraq antik dövrə aid olan sənət nümunələrini göstərə bilirik. Xüsusən memarlıq və heykəltəraşlığa aid "dünyanın yeddi möcüzəsi" siyahısına daxil olan "Zevsin heykəli", "Rodoslu nəhəng", "Artemida məbədi" yaxud Homer poeziyasının inciləri olan "İliada", "Odisseya" əsərləri, qədim miflərin bu günə qədər çözülməyən sirləri onları yaradan insanların fərqli, üstün zəkaya sahib olduğunu fikirləşməyimizə imkan yaratsa da, lakin onlar konkret tarixi şəxsiyyətlərin təxəyyülünün, yaradıcılığının məhsuludular.

Qədim yunan fəlsəfi məktəblərinin nümayəndələri sənəti yaradıcılıq fəaliyyətinin ümumi kompleksindən ayırmasalar da, digər yaradıcı fəaliyyət növlərindən fərqli olaraq incəsənət nümunələrinin yaradılmasını ilahi düşüncənin, vəhyin təsiri altında həyata keçirilməsi kimi qəbul edirdilər. Bu fikrin bariz nümunəsinə antik fəlsəfənin görkəmli nümayəndələrində biri olan Platonun "eros doktrinası"nda rast gələ bilərik. Obyektiv idealist olan filosof kainatın yaradılışını ilahi yaradıcılığın, ilahi ideyanın ilahi düşüncə anı kimi qəbul edərək, insan yaradıcılığını insanın əldə edə biləcəyi ən yüksək "ağıllı" təfəkkürə nail olmaq anı hesab edir. Bədii yaradıcılıq bu yüksək vəziyyətə can atmaq istəyən ruhun ehtiraslı, erotik bir istəyidir. Heraklit, Demokrit, Aristotel kimi qədim filosofların fikrincə, yeni və bənzərsiz bir yaradılış kimi yaradıcılıq ilahi sferada iştirak etmir, çünki düşüncə hər növ fəaliyyətin fövqündə dayanır, yaratmaq qabiliyyəti ona tabedir və yalnız ilahi təfəkkürdə olan kamilliyin tamlığının təzahürüdür. Antik dövr filosofları insanın yaradıcılıq qabiliyyətini bəzən "tanrılarla rəqabət" səviyyəsinə çatdığını

iddia etsələr də, nəticə olaraq sonda yenə də İlahi təfəkkür, müdrik düşüncə nəzəri və praktik biliklərə əsaslanan insan əməyindən çox yüksək qiymətləndirilirdi. Yunan klassik fəlsəfəsinin görkəmli nümayəndəsi Aristotel yaradıcılıq haqqında "Poetika, "Ruh haqqında traktat" əsərləriylə yanaşı məşhur metafizikasında da söz açmışdır. O, yazırdı: "Yaradıcılıq üçün fəaliyyətin mənbəyi yaradılanda deyil, yaradanda olur. Onun baş verməsi ya sənətdir, ya da başqa bir qabiliyyətdir" [2, s. 285].

Fəlsəfə və elmin dinin kənizi rolu oynadığı orta əsr sxolastikasının nümayəndələrinin demək olar ki, əksəriyyəti, insanın nəsə yarada bilmək ehtimalını qəbul etmirdilər. Onlara görə yaratmaq yalnız Allaha xasdır. İnsanın mənəvi fəaliyyəti isə Allahın dünyadakı yaratma niyyətinin həyata keçirilməsində iştirak etməkdən ibarətdir. Burada yaradıcılıq yeni, bənzərsiz və təkrarolunmaz bir şeyi yaratmaq kimi deyil, mənəvi və dini hesab olunan vacib əməllərin həyata keçirilməsi kimi başa düşülür. Beləliklə, bədii və elmi yaradıcılıq ikinci dərəcəlidir, çünki insan yaradıcılığını müəyyən edən, qərar verən Allahdır.

Antroposentrik mövqe və humanist fəlsəfənin əsas rol oynadığı intibah dövründə insanın yaradıcılığına daha çox diqqət yetirilməyə başlandı. Mahiyyəti estetik düşüncədən ibarət olan bədii yaradıcılıq anlayışı aktuallıq qazanmağa başladı. Başqa sözlə, intibah dövründə yeni yaradıcılıq mexanizminin özünə və sənətkarın şəxsiyyətinə maraq yarandı. Renesansdan fərqli olaraq reformasiya nümayəndələri yaradıcılığı estetik (yaradıcı) məzmun kimi deyil, nailiyyətində etdiyi cəhdlər, səylər sayəsində nə qədər uğur qazanması onun seçilmiş olduğunun sübutudur. Protestantlığın təsiri altında formalaşan fəlsəfi cərəyanlar, xüsusən ingilis empirizminin nümayəndələri insanın yaradıcılıq keyfiyyətini müsbət hal kimi qəbul etsə də, onu dünya qavrayışının və dünya münasibətlərinin mövcud ənənəvi elementlərinin təsadüfi birləşməsi kimi şərh etməyə çalışırdılar.

Yaradıcı fəaliyyətin təxəyyülün məhsuldar qabiliyyəti kimi təhlil edilməsi XVIII əsrin sonlarında klassik alman fəlsəfəsinin nümayəndəsi, transsendental humanizmin banisi alman filosofu İ.Kant tərəfindən yaradılmışdır. O, təxəyyülün yaradıcılıq qabiliyyəti və ağıl arasında bir əlaqə olduğunu ortaya çıxarmışdır. "Transsendental" təxəyyül şəxsiyyətin düşüncə və fəaliyyətinin əsasını təşkil edib, onun şüurlu və qeyri-şüuri fəaliyyətinin birliyidir. İ.Kantın təxəyyül doktrinası obyektiv idealist, Alman klassik fəlsəfəsinin digər nümayəndəsi F.Şellinq tərəfindən davam etdirildi. O, yaradıcılığı insan fəaliyyətinin ən yüksək forması, insanın yaradanla təmasda olmasının səbəbi kimi izah edirdi. Alman klassik fəlsəfəsinin digər nümayəndəsi G.Hegel isə yaradıcılığı mütləq ideyanın (dünya ruhu, dünya ağlı), təbiətdə təzahür edən yaradıcı mənəvi prinsipi, subyektivliyin ontoloji strategiyası kimi qəbul edirdi [5, 78 s.]

XIX əsrin sonu XX əsrin əvvəllərində idealist fəlsəfədə yaradıcılığın mahiyyəti ilə bağlı konsepsiya fransız filosofu A.Bergson tərəfindən verilmişdir. O, yaradıcılıq dedikdə yaradıcı fəaliyyəti nəzərdə tutaraq onun həyatın mahiyyətini təş-

kil etdiyinə inanırdı. Dövrü olaraq baş verən bu proses özündə köhnəni birləşdirən texniki fəaliyyətdən fərqli olaraq yeninin davamlı doğulması olub yeni forma, məzmun görüntü və təcrübələrin ortaya çıxması deməkdir. Ekzistensializmin nümayəndələri üçün yaradıcılıq təbii və sosial təxəyyülün hüdudlarından kənara çıxan irrasionallıq kimi təhlil edilir. Yaradıcılığın subyekti olan absurd şəxsiyyətdə yaradıcı ruhun təzahür etməsi üçün idrakın hüdudsuzluğu lazımdır, o, bütün məhdudiyyətlər, qadağalardan uzaq durmalıdır. Ekzistensialistlər üçün yaradıcı ekstaz – ekzistensiyanın mövcudluğunun ən adekvat formasıdır. Qeyd etməliyik ki, mədəniyyətin mahiyyətində ruhun yaradıcı impulsunu məhdudlaşdıran bir başlanğıcın olması özü də vacibdir.

Marksist fəlsəfənin nümayəndələri yaradıcılığın idealist və metafizik mövqelərinə qarşı çıxaraq onu təbii və sosial dünyanın, gerçəkliyin obyektiv qanunlarına əsaslanaraq insanın və bəşəriyyətin məqsəd və ehtiyaclarına uyğun olaraq dəyişdirən bir insan fəaliyyəti kimi qəbul edirlər. Onlar təbiətin də nəsə yaratdığı fikrini rədd edir, təbiətdə baş verən prosesləri yaradıcılıq deyil, inkişaf prosesi kimi izah edirlər.

XX əsrin fəlsəfi cərəyanlarından olan praqmatizm, neopozitivizm yaradıcılıq aktını birtərəfli praqmatik baxımdan nəzərdən keçirərək onu ilk növbədə ixtiraçılıq kimi izah edib, yaradıcı insanın fəaliyyətinin məqsədinin isə müəyyən bir vəziyyətin qarşıya qoyduğu problemi həll etmək olduğunu qəbul edirdi. Neorealizm və fenomenologiya cərəyanının nümayəndələri üçün yaradıcılığın əsası fəaliyyət deyil, intellektual təfəkkür idi. Onlar əsas diqqəti bədii yaradıcılıq sahələrinə deyil, elmə yönəldirdilər.

Ötən əsr fəlsəfəsində yaradıcı şəxsiyyət və yaradıcılıq prosesi həm bütövlükdə cəmiyyətdə, bəşəriyyətin dünyagörüşündə baş verən dəyişikliklərlə əlaqədar olaraq sənətin tənəzzül dövrünü əks etdirən yeni cərəyan modernizm yarandı. Qərbi Avropa ölkələrində bədii mədəniyyətin süqutunun başlanmasının ilk əlaməti keçən əsrlərdə mövcud olmuş bədii üslubların təkrarlanması idi. İşarələrə, mifologiyaya, əfsanələrə, mistisizmə, nihilizmə və fantaziyalara inam əsasında ənənəvi formaların metafizik təkrarlanması deyildi, yeni yaranan köhnənin dialektik inkarı ilə əvəz olunurdu. Modernizm zahirən sistemsiz, qeyri-sabit, hərəkətlilik və komponentlərin əsas məntiqi işləməməsi ilə fərqlənirdi. Bu əlamətlər ondan əvvəlki rasional mədəniyyət formalarını kənara qoyan düşüncənin əsas xüsusiyyətləri kimi qəbul edilməlidir. XX əsrin 60-cı illərində Qərb ölkələrinin mədəni özünüdərkində yeni bir cərəyan meydana çıxdı və ona postmodernizm adı verildi. İntibah və maarifçilik dövrlərinin ideal və dəyərlərinə inam öz yerini tərəqqiyə, ağılın zəfərinə, insan imkanlarının sonsuzluğuna inamla əvəz etmiş oldu. Postmodernizmin müxtəlif milli variantları üçün ümumi cəhət onun "yorğun" dövrün, "entropiya" mədəniyyətinin adı ilə eyniləşdirilməsi hesab edilə bilər. Postmodernizmin klassik və qeyri-klassik fəlsəfi ənənələrin fərziyyələrindən proqram olaraq uzaqlaşmasına baxmayaraq, müasir fəlsəfənin postmodern proqramı

genetik olaraq əsasən qeyri-klassik fəlsəfə tipinə, xüsusən post-strukturizmə, struktur psixoanalizə, neo-marksizmə, fenomenologiyaya, Haydegger fəlsəfəsinə, "post-elmi düşüncə" və "poetik düşüncə" ənənələrinə, həmçinin semiotika və struktur dilçilik ənənələrinə və sonrakı versiyalarında-dialoq fəlsəfəsinə, dil oyunları nəzəriyyəsinə əsaslanırdı .

Kulturoloji baxımdan postmodernizm bədii avanqard təcrübəsinin inkişafı kimi çıxış edir, mənəvi mədəniyyətin əvvəllər müstəqil sahələri ilə şüur səviyyələri arasındakı xətti silir. Postmodernizm nəhayət "əsərdən" "quruluşa" keçidi möhkəmləndirir, estetik aktivliyi "yaradıcılıqdan" tərtib etməyə və sitat gətirməyə, "orijinal əsərlər" yaratmaqdan kollaja yönəldir. Postmodernizm adi şüur və mənəviyyatı, ibtidai və elmi, yaxşı və pis, çirkin və gözəl anlayışını qarışdırır və bərabərləşdirir [4, s. 21].

Müxtəlif fəlsəfi dövrlərdə "yaradıcılıq" anlayışının genezisini təhlil edərək, onu iki cəhətdən nəzərdən keçirməyin zəruriliyi barədə nəticə çıxarmaq olar. Birincisi, fəlsəfi, universal başa düşülən yaradıcılığın ən yüksək forması kimi yaradıcılığın təbiətinə aiddir. İkinci cəhət, yaradıcılıq mexanizmlərinin təhlilini əhatə edən psixoloji cəhətdir. Nəzərə almaq lazımdır ki, yaradıcılıq prosesi müəyyən sosial şəraitdə davam edir. Münasibətlər dialoqu və fikir mübadiləsi, tənqid və sosial hərəkətlilik azadlığı, yaradıcı müzakirələr, lazımi məlumatları tez zamanda əldə etmək və elm və mədəniyyətin nailiyyətləri ilə tanış olmaq qabiliyyətini əhatə edən mədəni bir vəziyyət lazımdır. İnsan cəmiyyətində yaradıcılıq heç vaxt ölmür, hər hansı bir sosial mühitdə istedadlı insanlar doğulur, davamlı inkişaf layihələri yaradılır, əhəmiyyətli kəşflər edilir.

Yaradıcılığın digər növləri kimi, musiqi yaradıcılığı səsin sonsuzluğunu, ilahi təbiətini dərk edib, uzun sürən axtarışlar nəticəsində bədii obrazın doğulması, çoxalması və qavranılması ilə əlaqəli meydana çıxan səs palitrasına bürünmüş yeni bir fikirdir. Bu prosesdə obyekt rolunda həm musiqi materialı, həm də onu yaradan və dinləyən insanlar çıxış edə bilərlər. Başqalarını təqlid etmədən unikallığı qoruyaraq, musiqiçinin fərdi-yaradıcı xüsusiyyətlərinin istifadəsiylə özünəməxsus, sirli, harmonik, estetik dəyərlərə cavab verən, psixoloji təsir gücünə malik olan gözəllik, mükəmməllik nümunəsi yaradan həqiqi musiqi sənət incisinə çevrilərək ölməzlik qazanır.

Elmi ədəbiyyatda musiqiçinin fəaliyyətini araşdırarkən adətən onu reproduktiv (qeyri-yaradıcı) və produktiv (yaradıcı) kimi növlərə ayırırlar. Reproduktiv (qeyri-yaradıcı) fəaliyyət dedikdə pedaqoji fəaliyyətin nəzəri və metodoloji əsaslarının öyrənilməsi – musiqi alətlərinin texniki və tətbiqolunma xüsusiyyətlərini nəzərə alaraq keçmiş materialın təkrarlanması; ifa texnikasını təkmilləşdirmək üçün təlim materialı üzərində iş, musiqi əsərinin ifası prosesinin texniki komponentlərinin, eşidilən ifa variantının təqlidi, kopyalanması, icrası nəzərdə tutulur. Musiqiçinin produktiv fəaliyyətinə isə orijinal əsərlərin yaradılması, texniki və ifaçılıq problemlərinin həlli, tənzimlənməsi üçün edilən məşqlər, transkripsiya,

ifa, musiqi materialının dinlənilməsi ilə əlaqəli yaradıcı tapşırıqların yerinə yetirilməsi kimi məsələlər aiddir.

Bəstəkarın, ifaçının və ya dinləyicinin yaradıcılıq fəaliyyəti həmişə duyğular, hisslər, əhval-ruhiyyə dünyasının inikası subyektiv fəaliyyət olduğu üçün əsərin tam olaraq emosional qavranılması mümkünsüzdür. Çünki biz bir qayda olaraq, öz mənəvi dünyamıza, psixi vəziyyətimizə uyğun olaraq bir-birimizdən fərqli şəkillərdə qavrayırıq, əsl musiqiçi odur ki, onun ifası zaman, məkan, din, dil fərqini aşmış olsun, bəşəriyyətə xitab edə bilsin.

İfaçının duyğuları əsərin bədii obrazının yaradılmasının leytmotivi olub, kompozisiyanın icrası zamanı əsərin sanki yenidən qurulması prosesinin əsasını təşkil edir. Bu proses dinləyici tərəfindən musiqinin qavranılması emosional reaksiya, empatiya ilə müşayiət olunaraq onda təəssürat formalaşdırır. Duyğuların ortaya çıxması, onların ötürülməsi və qavranılması xəyalın əks olunması ifaçı və dinləyici arasında həssas enerji mübadiləsi kimi təsəvvür edilə bilər. O, musiqinin ifadə olunması, ifa prosesini və musiqinin qavranılması ilə əlaqədar yaranan heyranlıq, yaxud zaman itkisi, narazılıq, təəssüflənmə kimi hisslərlə ifadə olunan qiymətləndirməni özündə birləşdirir.

İnsanın daxili imkanlarının, potensialının gerçəkləşməsi real imkanlara çevrilməsi kimi çıxış edən musiqi yaradıcılığının hərəkət konsentrasiya, yaradıcı qüvvələrin koordinasiyasını, yanaşı mövcudluğunu tələb edir, ilk növbədə, musiqiçinin yaradıcı inkişafının stimullaşdırıcısı kimi çıxış edir. İkincisi, yaradıcılıq prosesinin özü və nəticələri yaradıcılıq potensialının səviyyəsinin göstəricisi ola bilir. Üçüncüsü, musiqiçinin yaradıcılıq prosesinin gedişatının və nəticələrinin təhlili onun gələcək fəaliyyətinin perspektivləri haqqında fikir söyləmək üçün əsas ola bilər. Bir musiqiçinin yaradıcılıq potensialı, onun bədii, estetik şüuru – (maraqları, mənəvi ehtiyacları, zövqləri, fərdi qabiliyyətləri), dəyər sistemləri (obyektiv aləmin inkişaf qanunauyğunluqlarına baxışlar sistemi, inancların formalaşmasına münasibəti zamanı mövqeyi), şüurlu vəziyyətiylə yanaşı qeyri-şüuri halı (irrasionallığın dərki, intuisiya, apatiya, ilham və s.); şəxsi keyfiyyətləri (sosial, mənəvi, psixi aspektdə formalaşan) onun fəaliyyəti, musiqi imicinin formalaşmasında özünü göstərir.

Yaradıcılıq fenomeninin fəlsəfi izahını verərkən təxəyyül anlayışına toxunmamaq olmaz. Danılmaz faktdır ki, təxəyyül və yaradıcılıq anlayışı bir-biri ilə sıx bağlıdır Yaradıcı fəaliyyət prosesində formalaşan təxəyyülün bədii yaradıcılıq prosesində əhəmiyyəti xüsusilə böyükdür. Obyektiv gerçəkliyin təxəyyülün köməyi ilə şüurda əks olunması həm zəka, həm də psixika üçün vacibdir. Yaradıcı şəxsiyyət təxəyyülün köməyi ilə fəaliyyətinin gələcək addımlarını planlaşdırır, üzərində işlədiyi mövzuya müxtəlif aspektlərdən yanaşmağı təsəvvür edə bilər, zamanla – keçmişə və ya gələcəyə yollanaraq baş vermis və baş verməsi mümkün olacaq hadisələri analiz edərək onlardan yaradıcılıq prosesi üçün yeni materiallar əldə etmiş olur.

Şəxsiyyətin subyektiv fəaliyyətinin müxtəlif növlərində təzahür edən təxəyyül növlərinin (konstruktiv, texniki, elmi, bədii) ən yüksək təşkil olunmuş formasını yaradıcı təxəyyül təşkil edir. Yaradıcı düşüncə yeni fikirlər yaratmaq, problemləri kreativ metodlarla həll etmək və dünyanı fərqli şəkildə, yeni bir işıqda görmək qabiliyyətidir. O, cəmiyyətin müxtəlif sahələrini (incəsənət, elm, biznes və b.) əhatə etməklə kifayətlənmir, məişətimizin bir parçası olub gündəlik fəaliyyətimizdə qazana biləcəyimiz uğur və nailiyyətlərin vacib bir hissəsidir. Təxəyyülün yaradıcılıq prosesindəki roluna gəldikdə isə onu insanın nəzəri fəaliyyətinin təzahürü kimi görüntü və təsvir yaratmaq bacarığı, qabiliyyəti kimi səciyyələndirə bilərik.

Yaradıcı prosesin əsasını təşkil edən amillərdən biri də ilham məsələsidir. Biz hələ də ilham fenomenini fövqəl, qeyri-adi bir şey kimi qəbul edirik. Bizə elə gəlir ki, o xaotik və şüurumuzun nəzarətindən kənar ruh impulslarının təzahürüdür. İlham müstəqil bir psixoloji fenomendir, o, hər hansı yeni fikri axtarmaq, tapmaq və tətbiq etmək bacarığı deməkdir. İlham qabiliyyət, istedad kimi psixi keyfiyyət deyil, çünki insan istedadlı, qabiliyyətli olsa belə bunu heç vaxt tətbiq etməyə də bilər. İlham insan şüurunda yalnız fikirləri deyil, onları dərhal həyata keçirmək üçün motivasiyanı da formalaşdıra bilir.

İlhamın gəlməsi üçün nələr etmək olar? Bütün dövrlərdə sənətlə məşğul olmağa başlayan insanları düşündürən əsas sual olmuşdur. İlk növbədə qeyd etməliyik ki, təbiət bizim dərk etdiyimizdən, təsəvvür etdiyimizdən daha mürəkkəb, daha sirli və daha heyrətamiz olub, ruhumuza qida verən, yeniləyən ən yaxşı vasitədir. Buna görə də yaradıcı insan təbiətlə əlaqəni dərinləşdirməli, özünü onun bir hissəsi hesab etməlidir. Yazın ilkin gəlişi, günəşin daha parlaq olması, təbiətin yaşıllaşması, günəşin çıxması, qürub, dəniz, çay, dağ mənzərələri ilham pərisinin gəlməsini sürətləndirə bilir. Janrdan asılı olmadan bütün yaxşı musiqi nümunələrini dinləmək, öyrənmək, ilham almaq onları təkrarlamaq üçün deyil, pisləri yaxşıdan, yaxşıları, ən yaxşıdan ayırmaq üçün vacibdir. Bəzən isə orijinal bir fikir tapmaq üçün mənbələri məhdudlaşdırmaq yaradıcı düşüncəyə yenilik bəxş edən kreativ həll ideyaları tapmağa kömək edir. Yaradıcı prosesin məhsuldar olması üçün hər bir insan qaydalar sistemi, rejim, qrafik hazırlayıb, onlara əməl etməyə çalışa bilər. Həmfikir yaxud fərqli dünyagörüşünə malik insanlarla ünsiyyət qurmaq, onların sənət dünyasıyla tanışlıq yaradıcı prosesə müsbət təsir göstərə bilər. Sənətə həvəsi olan insanlarla bərabər olmaq, onlarla uzun müzakirələr və fikir mübadiləsi aparmaq faydalıdır. Çünki yaradıcı proses yoluxucudur. Yaradıcı cəmiyyətin bir parçası olmaq həyatın ən böyük sevinclərindən biri ola bilər.

Musiqi yaradıcılığı gerçəkliyi tanıma prosesi, bədii obrazlarda əks olunması kimi obyektiv və subyektiv növlərə bölünür. Musiqiçinin həyat təəssüratlarını bədii obrazlara çevirmək, yenidən yaratmaq istəyi və bacarığına əsaslanan bədii məhsulların yaradılması obyektiv proses olub cəmiyyətin mənəvi inkişafının əsas hərəkətverici qüvvəsi rolunda çıxış edir. Subyektiv musiqi yaradıcılığı zamanı

bədii məhsulların yaradılması müəllifi üçün yeni olsa da dinləyicilər üçün böyük əhəmiyyət kəsb etmir. Buna nümunə olaraq uşaqların ifaçılıq sənəti dünyasında ilk addımlarını göstərə bilərik.

Son olaraq fikirlərimizi ümumiləşdirsək deyə bilərik ki, axtarış, yenini tapmaq, yaratmaq insan həyatının əsas funksiyalardan biri olub, onun təbiətinin fitri ehtiyacı, öz daxili "mən"inin inkişafının hərəkətverici qüvvəsidir. Bu axtarış fəaliyyəti ya xoşumuza gəlməyən, qəbuledilməz bir vəziyyəti dəyişdirməyə, ya da ona münasibətinizi dəyişdirməyə, əlverişli bir vəziyyəti qorumağa yönəlmiş fəaliyyətdir. Bunu yaradıcılıq adlandırmaq olar. Təbiətdə böyük yaradıcı fəaliyyət göstərən şəxslər həmişə varlıq uğrunda mübarizəyə ən çox uyğunlaşırlar. Çünki insanlarda uğur həmişə axtarış fəaliyyəti ilə əlaqələndirilir. Həmişə axtarışda olmaq yüksək yaradıcılıq fəaliyyəti deməkdir. Unutmaq lazım deyil ki, bəzən bu gün hədəf kimi qəbul etdiyimiz, fikir ya ideyadan imtina etməyə hazır olmaq bacarığına sahib olmaq lazımdır. Bu bizə hər hansı uğursuzluqla qarşılaşdıqda cəld və problemsiz yenidən mənəvi və fiziki cəhətdən özümüzü toplamağa, parçalanmış fikirləri yenidən birləşdirməyə kömək etmiş olacaq. Başqa sözlə, imtina yeni bir yolla getmək bacarığıdır. İnsanın mənəvi tələbatlarından biri olan yaradıcılığa ehtiyac yalnız "axtarış" səbəbləri ola bilməz. Onlara qlobal problemlərin həllinə, cəmiyyətin yeni texniki ixtiralara ehtiyacı; insanın duyğularının toplanıb böhran vəziyyətində stressdən uzaqlaşmaq, narahatlığı azaltmaq – özünü təsdiqləmək, ifadə etmək, aktuallaşdırmaq istəyi; yaradılış prosesindən zövq almaq, fərdin özünün daim dəyişməsinə, qocalıqda beynin məhsuldar fəaliyyətini qorumaq ehtiyacı kimi səbəbləri aid edə bilərik. Başqa sözlə, yaradıcılıq insanın mənəvi kamilliyinə yardım edərək onda bütövlük, mükəmməllik, tamlıq, ədalət kimi dəyərlərin formalaşmasına olan ehtiyacını ödəyir. İnsanın mənəvi inkişafında təkanverici rol oynayan yaradıcılıq yalnız yeni fikirlərin və ya əsərlərin yaradılmasını deyil, həm də onun daxili aləminin, mənəvi dünyasının qurulmasına nəzarət etmiş olur.

## ƏDƏBİYYAT:


1. Арнольдов А.И. Диалог культур: веление времени. М.: МГУКИ, 2001, 186с.
2. Аристотель. Метафизика / Аристотель. М.: 2019, 448 с.
3. Волобуев В.А. Эстетические основы современного искусства // Культура и образование. 2015, № 1 (16). С. 59-61
4. Губин В.Д. Философия / В.Д. Губин, Т.Ю. Сидорина, В.П. Филатов. М.: ТОН-Остожье, 2001, 704 с.
5. Кастельс М. Информационная эпоха: экономика, общество и культура / М.: Прогресс-Академия, 1995-325 с.
6. Сеидов С.И. Феноменология творчества (История, Парадоксы, Личность) Б.: Чашыоглу, 2009, 301 с.
7. Энгельмейер П.К. Теория творчество М:. Книжный дом "Либроком", 2010, 208 с. (Изд. 3)

**Жаля МАГЕРРАМОВА**
Старший преподаватель кафедры
«Гуманитарные дисциплины» АМК

## СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ АНАЛИЗ ТВОРЧЕСТВА

***Аннотация**: В статье дается социально-философское объяснение концепции творчества, одной из важнейших тем литературы, философии, психологии и других наук, высшей формы духовной деятельности человека. Анализируется продуктивная и репродуктивная музыкальная деятельность, ее объективная и субъективная стороны, отражающие объективную действительность, человеческие эмоции, представления. Дается информация о философских концепциях, связанных с сущностью «творческого потенциала», выступающего показателем развития творческой природы личности, основным источником творческого процесса. В статье дан анализ основ созданной П. К. Энгельмейером новой науки «эврологии».*

***Ключевые слова:** репродуктивная активность, нерепродуктивная активность, творчество, музыкальное творчество, творческое воображение, “трансцендентное” воображение, интеллектуальное мышление, эврологии*

**Zhala MAHARRAMOVA**
Senior lecturer of the Department
of “Humanitarian disciplines” of AMK

## SOCIO-PHILOSOPHICAL ANALYSIS OF CREATIVITY

***Abstract**: The article provides a socio-philosophical explanation of the concept of creativity, one of the most important topics of literature, philosophy, psychology and other sciences, the highest form of human spiritual activity. Productive and reproductive musical activity, its objective and subjective sides, reflecting objective reality, human emotions, ideas, are analyzed. It provides information on philosophical concepts related to the essence of "creative potential", which is an indicator of the development of the creative nature of the personality, the main source of the creative process. The article analyzes the foundations of the new science of "evrology" created by P. K. Engelmeyer.*

***Keywords:** reproductive activity, non-reproductive activity, creativity, musical creativity, creative imagination, “Transcendental” imagination, intellectual thinking, evrology*

**Rəyçilər**: filologiya üzrə fəlsəfə doktoru, professor Firudin Qurbansoy;
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Akif Quliyev